AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Azərbaycan Konstitusiyası 31 yaşına çatdı

Noyabr 12, 2026




Dəyişən Konstitusiya İlham Əliyevi necə super prezidentə çevirir? (Arxiv videosu)

Azərbaycanın müxtəlif vaxtlarda çoxsaylı dəyişiklik və əlavələr edilən Konstitusiyasının qəbul olunmasından 31 il keçir.

Mövcud Azərbaycan Konstitusiyası 31 il əvvəl, 1995-ci il noyabrın 12-də qəbul edilib.

Müstəqil Azərbaycanın bu ilk Konstitusiyası beş bölmə, 12 fəsil və 158 maddədən ibarət olub.

1995-ci ildən Konstitusiyaya üç dəfə — 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da referendum yolu ilə əlavə və dəyişikliklər edilib.

## 2002-ci il...

2002-ci il dəyişikliklərindən sonra ölkədə proporsional seçki sistemi ləğv edilib, baş nazir isə Milli Məclis sədrindən önə çıxaraq ölkədə ikinci şəxs statusu alıb. (Proporsional seçki sistemi səslərin ayrı-ayrı namizədlərə deyil, partiyalara verilməsini nəzərdə tutur. 2002-ci ilə qədər Azərbaycan parlamentində yerlərin beşdə biri, yəni 25 deputat bu sistemlə seçilirdi).

## 2009-cu il...

2009-cu ildə bir şəxsin ardıcıl iki dəfədən çox prezident seçilməsinə qoyulan qadağa aradan qaldırılıb. Bundan sonra prezident **İlham Əliyev** üçüncü, dördüncü və beşinci dəfə bu vəzifəyə seçilib.

## 2016-cı il...

Nəhayət, 2016-cı il referendumunda prezidentlik müddəti 5 ildən 7 ilə qədər artırılıb. Ölkədə vitse-prezidentlik institutu təsis edilib. Bundan bir il sonra — 2017-ci ildə ölkəyə 2003-cü ildən rəhbərlik edən İ.Əliyev xanımı **Mehriban Əliyeva**nı Birinci vitse-prezident vəzifəsinə təyin edib.

Ümumilikdə hər üç referendumda ölkənin Əsas Qanununa çoxsaylı dəyişiklik və əlavələr edilib.

2009-cu ilə kimi Konstitusiya Günü qeyri-iş günü olsa da, həmin vaxtdan etibarən artıq iş günüdür.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur